**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının magistrı**

**Əsrar Şahniyarovun hazırladığı "Beynəlxalq ticarətdə maliyyə nəticələrinin uçotunun tərtib edilməsi və onun təkmilləşdirilməsi istiqamətləri" adlı hazırladığı məqaləyə**

# RƏY

Dünyada xarici ticarət əməliyyatlarının əhəmiyyəti günü-gündən artır. Bu kontekstdə son illər beynəlxalq şirkətlərin sayının artması və mühasibat uçotu praktikaları arasında fərqlərin yaranması maliyyə məlumatlarının müqayisəsini çətinləşdirir. Bu vəziyyət kapital bazarlarının inkişafına mane olmaqla, beynəlxalq şirkətlərin fəaliyyətini məhdudlaşdırmaqla mənfi təsirlər yaradır.

Xarici ticarət əməliyyatlarında tərəflər arasında etimadın əsasını maliyyə hesabatları təşkil edir. Maliyyə hesabatlarının düzgün tərtib edilməsi vacibdir, lakin ticarətdə iştirak edən tərəflərin bu maliyyə hesabatlarından eyni göstəriciləri başa düşmələri də son dərəcə vacibdir. Beynəlxalq Maliyyə Hesabatları Standartları (BMHS) xarici ticarət vahidlərinin maliyyə hesabatlarından eyni mənanı almasını təmin etmək üçün vacibdir. Bu standartlar maliyyə hesabatlarında ardıcıllıq və şəffaflığı və maliyyə məlumatlarının beynəlxalq şirkətlər arasında ardıcıl və müqayisə edilə bilən olmasını təmin edir. Bu, xarici ticarət vahidlərinə maliyyə məlumatlarını dəqiq təhlil etməyə və qərar qəbul etmə proseslərində daha etibarlı məlumatlara əsaslanmağa imkan verir. Məqalədə müxtəlif ölkələrdə məhsul istehsalçıları arasında əlaqələrin yaradılmasına və kommersiya əməliyyatları vasitəsilə malların (o cümlədən xidmətlər və vasitəçilər) dövriyyəsinə imkan verən xarici ticarət prosesi araşdırılmışdır. Bütövlükdə magistrant Əsrar Şahniyarovun məqaləsi müasir tələblərə cavab verir və çapa tövsiyə olunur.

**AƏSMA-nın "Maliyyə və mühasibat uçotu"**
**Kafedranın dosenti, i.ü.f.d** **H.Ə.Mirzəyeva**

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Ümumi şöbə